Ədalət.- 2022.- 19 fevral.- S.5.

İlhamə Ənvərqızı

# Şuşa həsrətli Ənvər Əhməd

*2021-ci il 30 avqustda Şuşada Vaqif poeziya günlərinin açılışına atam-şair Ənvər Əhmədi də dəvət etmişdilər,ancaq həmin gün şəkər komasına düşdü və 30ildir ki hesretində olduğu Şuşaya gedə bilmədi..*

*İki gün sonra komadan ayıldı,kostyumunu geyinib tədbirə getmək istədi,ancaq biləndə ki artıq poeziya günləri bitib ,uşaq kimi məyus oldu,çox üzüldü..*

*Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Milli Yaradıcılıq Akademiyasının doktoru,"Tərəqqi"medalı və "Qızıl qələm" mükafatı laureatı, professor,filologiya üzre felsefe doktoru Əhmədov Ənvər Misir oğlu*

*ders dediyi Xankəndi Pedaqoji Universitetində bütün tələbələrin sevimlisi idi.,tələbələri onun nə qədər vətənsever olduğunu,hələ sovet dönemindən tələbələrinə milli ruh aşılamağa çalışdığını yaxşı xatırlayırlar.*

*Xankendindən azərbaycanlılar çıxarıldıqdan sonra o zamankı Pedaqoji İnstitutun müellim tələbə heyəti çox çalışdılar ki ,İnstitut Şuşada qalsın.Bu yolda çox əziyyətlər çəkdilər.Hər dəfə Xankəndi yolunda erməni terrorçular Azerbaycanlı tələbə və müellimləri atəşə tutsalar da ,daş yağdırsalar da pedaqoji kollektiv Şuşada qalmağa çalışırdı ki,Azerbaycanlı əhali üçün bir umud,dəstək,Qala olsun .*

*Şuşa işğal edildikdən sonra isə Xankəndi Universitetinin azerbaycan bölməsi Ağcabedi şəhərində fəaliyyət göstərməyə başladı,daha sonra isə Nəsrəddin Tusi adına Pedaqoji Universitetin Ağcabədi filialı adlandırıldı.*

*Atam filialda rektor vəzifəsində işlədiyi illərdə filiala Qarabağ Universiteti adı verilməsi üçün çox çalışdı,ancaq bu o zaman-90-cı illərdə mümkün olmadı,təhsil nazirliyi maddi texniki bazanın olmadığını səbəb gösterdi ..*

*Bu gün atam çox ağır xestedi..*

*Təbiətin ziddinə getmək mümkün deyil,ama kaş ki Qarabağ yanğılı,Qarabağ nisgilli atam Şuşanı görə biləydi....*

*Duaçıyam sənə atam....*

*Yaradan Tanrım sənə kömək olsun,yardımçın olsun !*

*Kaş ki tükənən ,yorulan nəfəsinə nəfəs ola biləydim...,xeyirxah,ürəyiyuxa,nəcib,*

*alicənab,əsil İNSAN Atam!*